# HÜSEYNOV ELŞAD EYNULLA OĞLU



Hüseynov Elşad 1960-cı il oktyabr ayının 8-də Masallı rayonunun Xıl kəndində doğulmuşdur. 1978-ci ildə kənd orta məktəbini bitrdikdən sonra bir il sovxozda fəhlə işləmişdir. 1979-cu ildə hərbi xidmətə çağırılmış və Batumi şəhərində xidmət etmişdir. 1981-ci ildə ordudan tərxis olunduqdan sonra vətənə dönmüş və Bakının Səbail rayonunda DİŞ-nin nəzdindəki mühafizə şöbəsində milis nəfəri kimi işə qəbul olunmuşdur. 1986-cı ildə N.Rzayev adına Bakı Xüsusi Orta Milis məktəbinin (indiki Polis Akademiyası) qiyabi şöbəsinə daxil olmuş və 1989-cu ildə təhsilini başa vurmuşdur. O, cəbhəyə göndərilməsi barədə bir neçə dəfə DİN-ə müraciət etmişdir. 1991-ci ildən etibarən müntəzəm olaraq cəbhə bölgəsinə getməyə başlamışdır. İlk döyüşləri Füzuli və Tərtər bölgələrində olmuşdur. Daha sonra Marağa, Cuvarlı, Marquşevan, Ağbulaq kəndlərinin düşməndən azad olunmasında şücaət göstərmişdir. Sonra Əsgəran istiqamətində döyüşlərdə iştirak etmiş və qolundan yaralanmışdır. 1992-ci il iyunun 15-i Fərrux kəndini düşməndən azad etmək üçün gedən döyüşdə Elşad mövqeyini dəyişmək üçün səngərdən çıxarkən qəfil gülləyə tuş gələrək şəhid olmuşdur. Doğulduğu Masallı rayon Xıl kəndində dəfn edilmişdir. Ailəli idi. Üç qızı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Hüseynov Elşad Eynulla oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Masallı rayonunda adına küçə var. Masallı rayonunun Xıl kəndində büstü qoyulmuşdur.